**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN QADINI AİLƏDƏ VƏ İCTİMAİ HƏYATDA (GENDER MÜNASİBƏTLƏRİNƏ ETNOQRAFİK BAXIŞ)

| | |
|---|---|
| İxtisas: | 5102.01 - Etnoqrafiya və etnologiya |
| Elm sahəsi: | Tarix |
| İddiaçı: | **Samirə Nail qızı Ramazanova** |

fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2024**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun "Müasir etnoqrafiya şöbəsi"ndə yerinə yetirilmişdir.

Elmi rəhbər: tarix elmləri doktoru, dosent
**Güllü Yoloğlu qızı Məmmədli**

Rəsmi opponentlər: tarix elmləri doktoru, dosent
**İlhamə Gülbala qızı Məmmədova**

tarix üzrə fəlsəfə doktoru, dosent
**Sevdagül Fazil qızı Əliyeva**

tarix üzrə fəlsəfə doktoru
**Əmanət Allahverən qızı Əsədova**

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurası.

Dissertasiya şurası sədri: tarix elmləri doktoru, professor
**Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının elmi katibi: tarix elmləri doktoru, dosent
**İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: tarix elmləri doktoru, professor
**Fəzayıl İmran oğlu Vəliyev**

# I.DİSSERTASİYANIN ÜMUMI SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan qadınının sosial, ictimai, mədəni və siyasi həyatdakı mövqeyi bir problem kimi bəzi elm sahələri tərəfindən araşdırılsa da, etnoqrafik baxımdan yetərincə tədqiq edilməmişdir. Xüsusilə sovet hakimiyyəti illərində məsələyə sırf ideoloji prizmadan yanaşılmış, sosializm cəmiyyətinin stereotipləri və sinfi münasibətlər mövqeyindən izah edilmişdir. Bunun da nəticəsində qadın-kişi münasibətlərinə və bütövlükdə insan faktoruna ideoloji yanaşma fərdin sosial,ictimai mövqeyini və mədəni-siyasi baxışlarını arxa planda qoymuş, cəmiyyətin bütün üzvləri, demək olar ki, eyni qəlibə salınmışdır. Halbuki Azərbaycan xalqının mədəniyyətinin, adət-ənənələrinin və dünyagörüşünün ifadəsi kimi çıxış edən milli-mənəvi dəyərlərimizdə qadına münasibət, onun ailədə və cəmiyyətdə mövqeyi öz əksini tapmışdır. Buna görə də gender münasibətlərinin etnoqrafik xüsusiyyətlərinin və inkişaf meyllərinin araşdırılması, qadın siyasətinin hüquqi vəziyyəti, onun ailədə və ictimai həyatda fəallıq dərəcəsi və s. etnoqrafik araşdırma mövzusu kimi aktuallıq kəsb edir.

Məlum olduğu kimi, fərqli cəmiyyətlərdə gender probleminə fərqli yanaşmalar və baxışlar mövcud olmuş, bu zaman milli və dini ənənələr istər-istəməz daha çox ön plana keçmişdir. Belə bir yanaşma kontekstində müasir Azərbaycan cəmiyyətində qadının yerinin, rolunun və mövqeyinin müəyyənləşdirilməsi mövzunun aktuallığını şərtləndirən digər əsas bir amil kimi çıxış edir. Bundan əlavə, qadının cəmiyyətdə mövqeyinin statik olmadığını, daimi inkişafda və digər mədəniyyətlərlə qarşılıqlı təsirdə formalaşdığını nəzərə alsaq, o zaman ənənəvi mənəvi-əxlaqi dəyərlər prizmasından ona münasibət də vacib bir məsələ kimi ortaya çıxır.

Müasir gender münasibətlərinin sosial-hüquqi əsasları, qanunvericilik bazası, müvafiq qurum və təşkilatların fəaliyyətinin təhlili də tədqiqata cəlb olunan mövzunu aktuallaşdıran amillərdəndir.

Məlumat üçün deyək ki, Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra bütün sahələrdə olduğu kimi, gender münasibətlərinin tənzimlənməsi istiqamətində də möhkəm hüquqi baza yaradılmış, qadının ailədə və cəmiyyətdə yeri, rolu və

funksiyaları müvafiq normativ hüquqi sənədlərlə tənzimlənmişdir. Ulu öndər Heydər Əliyevin və onun siyasi kursunun davamçısı Prezident İlham Əliyevin verdiyi qərar və sərəncamlar, o cümlədən Azərbaycan Respublikası Prezidentinin 14 yanvar 1998-ci il tarixli Fərmanı ilə "Qadın Problemləri üzrə Dövlət Komitəsi"nin (6 fevral 2006-cı ildən "Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi") yaradılması qadın və uşaq problemləri sahəsində uğurlu fəaliyyətin əsas təminatına çevrilmişdir.

Qloballaşma və mədəni inteqrasiya proseslərinin geniş vüsət aldığı müasir dövrdə, habelə demokratik-hüquqi cəmiyyət quruculuğu şəraitində gender münasibətləri kateqoriyasının da yenidən nəzərdən keçirilməsini, onun sosial, siyasi, hüquqi və mənəvi yönlərinin bir daha doğru-düzgün müəyyənləşdirilməsini tələb edir.

Lakin bəşəriyyətin bəhs edilən sahədə malik olduğu təcrübəyə müasir Azərbaycan reallıqları prizmasından baxılmasına və onun cəmiyyət quruculuğunun vacib şərtlərindən biri kimi dəyərləndirilməsinə ciddi ehtiyac duyulur. Çünki hazırda bütün dünyada, xüsusilə də Avropada nəinki kişi və qadın, habelə "üçüncü cins" üçün də bərabər imkanlar modelinin axtarışları gedir ki, bu da gender münasibətlərinin bəşəri bir problem olaraq doğru-düzgün dəyərləndirilməsi zərurətini ortaya qoyur. Belə bir şəraitdə insanların maarifləndirilməsi, problemin elmi paradiqma səviyyəsində araşdırılması, gender münasibətlərinin (o cümlədən, bərabərliyinin) Azərbaycanın mədəni, mənəvi və sosial-siyasi mühiti müstəvisində nəzərdən keçirilməsi tədqiqat işinin aktuallığını şərtləndirən digər bir vacib məqam kimi çıxış edir.

Məlum olduğu kimi, Azərbaycan xalqı qadına münasibətdə tarixən formalaşan, yüksək mənəvi-əxlaqi dəyərləri özündə ehtiva edən zəngin dəyərlərə və adət-ənənələrə malikdir. Bu dəyərlər və adətlər müxtəlif ictimai-siyasi formasiyaların sınaqlarından keçməsinə, fərqli inanc, etiqad və dünyagörüşlərlə qarşılıqlı təmasda müəyyən transformasiyalara məruz qalmasına baxmayaraq, günümüzə qədər gəlib çatmışdır. Doğrudur, müxtəlif vaxtlarda onların zamanın tələblərinə uyğun təkmilləşdirilməsi və ya zənginləşdirilməsi yönündə müəyyən təşəbbüslərə də cəhdlər göstərilmişdir. Bütün bunlar da istər orta əsrlərdə, istərsə də

Azərbaycanın Çar Rusiyasının və SSRİ-nin tərkibində olduğu dövrlərdə həyata keçirilən qadın siyasətinin xüsusiyyətlərində, həmçinin ayrı-ayrı müəlliflərin əsərlərində müəyyən dərəcədə öz ifadəsini tapmışdır. Lakin həmin rejimlərin siyasi-ideoloji mahiyyəti bəhs edilən məsələlərin obyektiv şəkildə işıqlandırılmasına imkan verməmişdir.

Yalnız müstəqillik illərindən etibarən Azərbaycan cəmiyyətində müşahidə edilən demokratikləşmə prosesi tarixə obyektiv gerçəkliklər prizmasından yanaşılmasını qaçılmaz etmişdir. Xüsusilə Azərbaycan qadınının ailədə və ictimai həyatda mövqeyinin öyrənilməsinə dair fundamental elmi araşdırmalara başlanılmış və bu sahədə bir çox uğurlara imza atılmışdır. Təqdim olunan dissertasiyada qadın hüquqları, qadının ailədə və ictimai-siyasi həyatdakı yeri, o cümlədən idarəçilik və mədəni-maarif sistemində qadın fenomeni ilə bağlı məsələlər araşdırılarkən məhz həmin əsərlərə müraciət edilmişdir. Onlardan biri də Azərbaycanın ictimai-siyasi fikir tarixinin görkəmli simalarından olan Əhməd bəy Ağayevin (Ağaoğlu) 1901-ci ildə nəşr edilmiş (Tiflis) "İslama görə və İslamiyyətdə qadın" adlı əsəridir[1]. Əsərdə İslam dinində və "Qurani-Kərim"də qadına verilən qiymət, İslam aləmində qadının statusu və digər məsələlər əhatəli şəkildə təhlil olunmuş, bununla bağlı xristian dünyasında geniş yayılmış əsassız və qərəzli iddiaların qeyri-obyektivliyi elmi əsaslarla göstərilmişdir.

Lakin bunun əksinə olaraq, sovet dövrünün araşdırmalarında qadın məsələləri daha çox dövrün ideoloji tələbləri baxımından izah olunmuş və qadın siyasətinin mahiyyəti totalitar rejimin şərtlərinə uyğun şəkildə təhlil edilmişdir. Qadın məsələsi ilə bağlı M.Z.Quliyevin[2] əsərində bir sıra əsassız tənqidlərə yer verilmiş və Azərbaycan qadınının dövlətin idarə edilməsində iştirakı milli xüsusiyyətlər nəzərə alınmadan təqdim olunmuşdur. Bundan başqa, Z.Axundova və S.İmanzadənin dissertasiyalarında müəyyən faktiki materiallar əksini tapsa da, məlum gerçəkliklər təhrif edilərək şəxsiyyətə pərəstiş dövrünün tələbləri çərçivəsinə salınmış, tarixi

[1] Ağayev, Ə. İslama görə və islamiyyətdə qadın (rus dilindən tərcümə edəni Rüfət Şərifov) // – Bakı: "Mədəniyyət dünyası", – 2006, XII buraxılış, – s.31-50.
[2] Quliyev, M.Z. Türk qadınının yolu / M.Z. Quliyev. – Bakı, 1930. – 126 s.

şəxslərin qadın azadlığı, xüsusilə də qadın təhsili sahəsində xidmətləri qeyd edilməmiş, məsələlərə sinfi mübarizə kontekstində və birtərəfli yanaşılmışdır.

E.Q.Qədirovanın, S.S.Məmmədovun, C.A.Təhmasibin dissertasiya işləri, S.G.Məmmədov və Ş.M.Muradovun monoqrafiyaları fərqli problemlərə həsr olunsa da, gender bərabərliyi məsələsinin ayrı-ayrı aspektlərini də əhatə etmiş və burada dövrün məlum stereotiplərinə rəğmən bir sıra obyektiv elmi nəticələrə gəlinmişdir.

L.C.Mövsümovanın əsərlərində Azərbaycan qadınının ailə və cəmiyyətdəki mövqeyi fəlsəfi prizmadan araşdırılmışdır. K.Y.Abdulovanın dissertasiya işində sosializm cəmiyyətində sosial həyat tərzi, cinslərin sosial bərabərliyi, kişi və qadınlar arasında sosial bərabərliyin inkişafının təkmilləşdirilməsi yolları və s. tədqiqata cəlb olunmuşdur.

Z.Q.Quliyevanın dissertasiya işi Azərbaycan qadınlarının İkinci dünya müharibəsində iştirakına və döyüş meydanındakı qəhrəmanlıqlarına həsr edilsə də, qadınların ictimai-siyasi, mədəni-maarif və səhiyyə sahəsindəki xidmətləri kimi məsələlər də diqqətdən kənarda qalmamışdır.

İ.M.Hacıyevin dissertasiyasında isə Azərbaycan qadınlarının müharibə illərindəki qəhrəmanlığı ilə yanaşı, onların ictimai-siyasi, mədəni-maarif, səhiyyə və istehsal sahələrində fəal iştiraklarına geniş yer verilmişdir. S.Q.Eyvazovanın tədqiqatlarında sovet dönəmində cinslərarası sosial münasibətlər bir qədər fərqli yöndən öyrənilməklə, gender asimmetriyası, kişi və qadınların özünütəsdiqi üçün yaradılan qeyri-bərabər imkan və şərait, habelə gender asimmetriyasının ideoloji xüsusiyyətləri təhlil edilmişdir.

Nəhayət, 2004-cü ildə işıq üzü görmüş "Müsəlman cəmiyyətlərində qadınlar"[3] adlı əsərdə SSRİ-də qadın hərəkatı və XX əsrin sonlarında müsəlman ölkələrində, xüsusilə də Azərbaycanda qadınların vəziyyəti ilə bağlı problemlər ətraflı araşdırılmış, qadın şöbələri və qadın nümayəndələrinin yığıncaqları barədə geniş məlumat verilmişdir.

---

[3] Müsəlman cəmiyyətlərində qadınlar. İslami birlik və müxtəliflik (ingiliscədən tərcümə edəni: Altuntac Balayeva). – Bakı: Elm və həyat, – 2004. – 366 s.

Dissertasiya işi yazılarkən, yeni dövrün tarixi-siyasi proseslərini düzgün dərk etmək və dolğun işıqlandırmaq məqsədilə elmi-tədqiqat işləri ilə yanaşı, publisistik əsərlərə də diqqət yetirilmişdir. Belə ki, araşdırdığımız problemin ayrı-ayrı aspektlərinin təsvirinə və təhlilinə Ə.M.Cəfərzadənin[4], R.B.Hüseynovun[5], Z.İ.İbrahimovun[6], T.Ə.Bünyadovun[7], M.İ.Həsənovanın[8], S.G.Məmmədovun[9] və bir sıra başqa müəlliflərin əsərlərində rast gəlmək mümkündür.

Azərbaycanda müstəqilliyin bərpasından sonra qadınların ailədə və ictimai həyatda fəallığının artması mövzuya dair fərqli münasibətlərin meydana gəlməsini də şərtləndirmişdir ki, bu da aparılan elmi tədqiqatların mahiyyətində özünü göstərməkdədir. Belə ki, müstəqillik dövrünün tədqiqatçıları özlərindən əvvəl yazılmış əsərlərin bazasında qadın və dövlətin qadın siyasəti məsələsinə daha qlobal çərçivədə diqqət yetirməyə başlamışlar. Məsələn, Ə.S.Abasov, A.H.Naxçıvanlı, S.Nəcəfova, S.Y.Süleymanova, İ.K.Qassiyev, A.Q.Qasımova, L.C.Mövsümova kimi araşdırıcıların tədqiqatlarında problemə yeni baxış bucağının şahidi oluruq. R.R.Mirzəzadənin tədqiqatlarında gender problemlərinin fəlsəfi, tarixi və hüquqi istiqamətləri, əsas mahiyyəti və nəzəri-metodoloji aspektləri ilə yanaşı, gender və feminizmin oxşar və fərqli xüsusiyyətləri də açıqlanmışdır.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin hazırladığı "Heydər Əliyev və Dövlət qadın siyasəti" adlı

---

[4] Cəfərzadə, Ə.M. Azərbaycanın qadın şairləri antologiyası / Ə.M.Cəfərzadə. – Bakı: Yazıçı, – 1969. – 346 s.; Cəfərzadə, Ə.M. Cəlaliyyə / Ə.M.Cəfərzadə. – Bakı: Gənclik, – 1983. – 466 s.

[5] Hüseynov, R.B. Məhsəti – necə varsa / R.B.Hüseynov. – Bakı: Yazıçı, – 1989. – 334 s.

[6]İbrahimov, Z.İ. Azərbaycan qadınlarının qəhrəmanlıq keçmişindən /Z.İ.İbrahimov. – Bakı: Azərnəşr, 1943. – 48 s.

[7] Bünyadov, T.Ə. Qız var oğuldan qeyrətli / T.Ə.Bünyadov. – Bakı: Azərbaycan, – 1992. – 24 s.; Bünyadov, T.Ə. Ağsaqqallıq // Azərbaycan etnoqrafiyası: [3 cilddə]. – Bakı: Şərq-Qərb, – III cild. – 2007, – s.107-124.

[8] Həsənova, M.İ. Azərbaycan milli dövlətçilik tarixində görkəmli qadınlar / M.İ.Həsənova. – Bakı: İmakofset, – 2008. – 212 s.

[9] Məmmədov-Gəncəli, S. Azərbaycanın maarifpərvər qadınları / S.Məmmədov-Gəncəli. – Bakı: – 1960. – 168 s.; Məmmədov-Gəncəli, S. Ömürlərdən səhifələr / S.Məmmədov-Gəncəli. – Bakı: İşıq, – 1973. – 210 s.

fundamental əsərdə Azərbaycanın ictimai-mədəni həyatında qadınların fəallığı, dövlətin qadın problemi sahəsində həyata keçirdiyi siyasətin prioritetləri və s. vacib məsələlər daha geniş müstəvidə nəzərdən keçirilir.

Qarşıya qoyulmuş problem üzrə apardığımız araşdırmalar zamanı Azərbaycan tədqiqatçılarının rus dilində yazılmış əsərlərini, o cümlədən, K.Y.Abdulovanın[10], L.A.Əliyevanın[11], A.Q.Qasımovanın[12], E.E.Qasımovanın[13], N.X.Zülfiqarovanın[14], G.İ.İbrahimovanın[15], S.N.İmanzadənin[16], E.Q.Kadırovanın[17],

---

[10] Абдулова, К.Я. Полное равенство полов и дальнейшее развитие социалистического образа жизни: / автореферат диссертации доктора философии по философии. – Баку, 1980, – 26 с.

[11] Алиева, Л.А. Положение женщин в Северном Азербайджане (1900-1922 гг.): / автореферат диссертации доктора наук по истории) / – Баку, 2016, – 54 с.

[12] Гасымова, А.Г. Проблемы женщин в азербайджанской прессе в начале XX века (1901-1917 гг.): / автореферат диссертации доктора философии по истории) / – Баку: 2004, – 26 с.

[13] Гасымова, Е.Е. Актуальные проблемы гендера / Е.Гасымова, А.Абасов – Баку: 2002. – 242 с.

[14] Зульфигарова, Н.Х. Женское движение и гендерные аспекты становления гражданского общество в Азербайджане: / автореферат диссертации доктора философии по философии) / – Баку, 2007, – 27 с.

[15] Ибрагимова, Г.И. Женская политика в Азербайджанской Демократической Республике //–Тбилиси: Право и Политология.–2009. №3 (8), – с.47-54.; Ибрагимова, Г.И. Проблема преодоления социальной напряженности в связи с формированием социального статуса женщин в переходный период // Материалы международной научно-практической конференции.–Пенза:–5-6 июня–2010,–с.18-21.

[16] Иман-заде, С.Н. Октябрьская социалистическая революция и освобождение женщин Азербайджана / С.Н.Имазаде.–Баку:–1957.–186 с.; Иман-заде, С.Н. Освобождение азербайджанки – одно из важнейших завоеваний Великой Октябрьской социалистической революции: / автореферат диссертации доктора философии по истории) / – Баку, 1954, – 28 с.

[17] Кадырова, Э.Г. Роль женщин в развитии промышленности Азербайджанской ССР в период коммунистического строительства (1959-1965 гг.): / автореферат диссертации доктора философии по истории) / – Баку, 1969, – 30 с.

Z.Q.Quliyevanın[18], S.S.Məmmədovun[19], L.C.Mövsümovanın[20], Q.R.Piriyevanın[21], A.İ.Sultanovanın[22] və C.A.Təhmasibin[23] kitab, monoqrafiya və məqalələri bütün aspektləri ilə bərabər nəzərdən keçirilmiş, onların fikir və mülahizələrinə istinadlar edilmiş və münasibət bildirilmişdir.

Bundan əlavə, tədqiqat zamanı istinad edilən türkdilli mənbə və ədəbiyyat sırasında isə Ə.Ağaoğlu[24], Y.Akçura[25], V.V.Bartold[26],

---

[18] Кулиева, З.Г. Женщины Советского Азербайджана в годы Великой Отечественной войны (1941-1945): / автореферат диссертации доктора философии по истории) / – Баку, 1987, – 30 с.

[19] Мамедов, С.С. Путь к прогрессу / С.С.Мамедов. – Баку: Азернешр, –1975. – 70 с.

[20] Мовсумова, Л.Д. Обновление общества и духовный мир женщин (на материалах Азербайджанской Республики)/Л.Д.Мовсумова.–Баку:Орнак,–1991. –77 с.; Мовсумова, Л.Д. Проблема женщин в духовной культуре Азербайджана/Л.Д.Мовсумова.–Баку: Элм,–1996–192 с.; Мовсумова, Л.Д. Социально-экономические и духовные факторы секуляризации женщин в условиях социализма: На материалах АзССР:/автореферат диссертации доктора философии по философии) /–Баку, 1987,–26 с.

[21] Пириева, Г.Р. Влияние глобализационного процесса на динамику социокультурных ролей женщины: / автореферат диссертации доктора философии по философии) / – Баку, 2011, – 23 с.

[22] Султанова, А.И. Сорок весен / А.И.Султанова. – Баку: – 1960. – 114 с.; Султанова, А.И. Счастливые женщины Советского Азербайджана: из истории борьбы КП Азербайджана за раскрепощение женщины-азербайджанки и вовлечение ее в социалистическое строительство / А.И.Султанова. – Баку: Азернешр, – 1964. – 132 с.

[23] Тахмасиб, Дж.А. К вопросу формирования новых черт морального облика женщины-азербайджанки после установления советской власти: / автореферат диссертации доктора философии по психологическим наукам) / – Баку, 1966, – 32 с.

[24] Ağaoğlu, A. İptidai Türk Aile Hukuku ile İptidai Hindo-Avrupai Aile Hukuku Arasında Mukayese // Birinci Türk Tarih Kongresi, Konferanslar-Müzakere Zabıtları. – İstanbul: – 1932, – s.264-269; Ağaoğlu, A. İslamiyette kadın (Ruscadan çeviren: Hasan Ali Ediz) / A.Ağaoğlu. – Ankara: Birey ve toplum yayınları, – 1985. – 60 s.

[25] Akçuraoğlu, Y. Türkçülük / Y.Akçura. – İstanbul: – 1990. – 272 s.; Akçura, Y. Türkçülüğün tarihi / Y.Akçura. – İstanbul: Kaynak yayınları, – 2001. – 184 s.

[26] Barthold, V.V. Orta Asya Türk Tarihi Hakkında Dersler / V.V.Barthold. – İstanbul: – 1927. – 352 s.

H.N.Baykara[27], E.Dürkheym[28], Z.Gökalp[29], H.Hikmət[30], A.İshaki[31], Y.Kalafat[32], M.B.Məmmədzadə[33], U.Özcan[34], M.Ə.Rəsulzadə[35], A.H.Şisler[36], G.M.Yoloğlu[37] və başqalarının əsərlərini qeyd etmək olar.

---

[27] Baykara, H.N. Azerbaycanda Yenileşme Hareketleri (XIX. Yüzil) / H.N.Baykara. – Ankara: Türk Kültürünü Araştırma Enstitüsü Yayınları: c. 16, – 1966. – 200 s.; Baykara, H.N. Azerbaycan İstiqlal mücadilesi tarihi / H.N.Baykara. – İstanbul: Genclik Basımevi, – 1975. – 331 s.

[28] Durkheim, E. Din Hayatının İptidai Şekilleri (Çev. Hüseyin Cahit): [2 ciltde] /E.Durkheim. – İstanbul: Tanin Matbaası, – I cilt, – 1923. – 402 s.; Durkheim, E. Din Hayatının İptidai Şekilleri (Çev. Hüseyin Cahit): [2 ciltde] / E.Durkheim. – İstanbul: Tanin Matbaası, – II cilt. – 1924. – 458 s.

[29] Gökalp, Z. Türkçülüğün esasları / Z.Gökalp. – İstanbul: Varlık Yayınevi (onbirinci basılış), – 1977. – 160 s.

[30] Hikmet, H. İçtimaiyatta Garbcılık ve Bozgunculuk // Sebil'ür-Reşad, – cilt: 21, sayı: 528-529, 16 mayıs 1923, – s.37-38.

[31] İshaki, A. Türk Kadını // Türk Yurdu, – cilt: 3, sayı: 15, – 1925, – s.335-336.

[32] Kalafat, Y. Destani katmanlaşma sürecinde türk kültürlü halklarda kadın teması ile ilgili inançlar (türk halk inançlarında kadın) // Türk epik ənənəsində dastan. "Ortaq türk keçmişindən ortaq türk gələcəyinə" VI Uluslararası folklor konfransının materialları. – Bakı: – 25-26 noyabr – 2010, – s.496-503.

[33] Mehmetzade, M.B. Kadınlara hürriyet // – Ankara: Azerbaycan, – mart 1954. – Sayı: 12 (24),– s.2-4.

[34] Özcan, U. Ahmet Ağaoğlunun eserlerinde kadın ve aile teması // – Bakı: Mədəniyyət dünyası, – XII buraxılış. – ADMİU, – 2006, – s.67-76.

[35] Resulzade, M.E. İran Türkleri (Hazırlayanlar: Yavuz Akpınar, İrfan Murat Yıldırım-Sabahattin Çağın) / M.E.Resulzade. – İstanbul: Türk Dünyası Araştırmaları Vakfı, – 1993. – 142 s.; Resulzade, M.E. Kafkasya Türkleri (Hazırlayanlar: Yavuz Akpınar, İrfan Murat Yıldırım-Sabahattin Çağın) / M.E.Resulzade. – İstanbul: Türk Dünyası Araştırmaları Vakfı, – 1993. – 132 s.

[36] Shissler, A.H. İki İmparatorluk Arasında. Ahmet Ağaoğlu ve Yeni Türkiye (Çe¬viren: T.U.Belge) / A.H.Shissler. – İstanbul Bilgi Universitesi Yayınları, – 1. Baskı. – 2005. – 369 s.

[37] Yoloğlu, G. Kadın ailede milli ve manevi değerlerin koruyucusudur // – Konuşmalar ve Bildiriler. – Ankara: – 2002, – s.595-598.

Həmçinin İ.K.Qassiev[38], D.V.Dojdev[39], E.F.Laxova[40], T.A.Melnikova[41], S.A.Tokarev [42] və digər rusiyalı tədqiqatçıların əsərlərindəki fikirlərə diqqət yetirilmiş və yeri gəldiyində münasibət bildirilmişdir.

Ş.A.Məmmədovanın “Anaların fəryadı” əsərində[43] XX əsrin 20-50-ci illərdə azərbaycanlı qadınlara qarşı repressiyalara dair məlumatlar bioqrafik şəkildə tədqiq edilmiş, onların elmi, mədəni və siyasi fəaliyyətləri araşdırılmışdır.

Etnoqraf G.M.Yoloğlunun kitab və məqalələrində[44] tarixən türk qadının xarakteri, cəmiyyətdəki mövqeyi və türk tarixindəki fədakarlıqları öz geniş əksini tapmış, habelə digər bir məqaləsində[45] Mehriban Əliyevanın timsalında müasir Azərbaycan qadınının sistemli idarəetmə keyfiyyətləri işıqlandırılmışdır. İ.G.Məmmədovanın məqaləsində[46] Azərbaycanda gender bərabərliyinin etnoqrafik aspektlərinə diqqət yetirilmiş,

---

[38] Гассиев, И.К. Решение женского вопроса в республиках бывшего советского Востока (20-30-е годы XX в.) / И.К.Гассиев. – Баку: б.и., – 2005. – 170 с.

[39] Дождев, Д.В. Римское частное право. Учебник для вузов / Д.В.Дождев. – Москва: Норма, Инфра-М, – 1997. – 704 с.

[40] Лахова, Е.Ф. Социальная и политическая адаптация российских женщин в годы реформ (90-е годы XX века): / автореферат диссертации доктора философии по политическим наукам) / – Москва, 1997, – 28 с.

[41] Мельникова, Т.А. Женское движение политическом процессе современной Россией: / автореферат диссертации доктора политических наук. – Москва, 2001, – 30 с.

[42] Токарев, С.А. Религия в истории народов мира / С.А.Токарев. – Москва: изд. «Политической литературы», – 1976. – 559 с.

[43] Məmmədova, Ş.A. Anaların fəryadı (Məsləhətçi və redaktor: polkovnik Xaqani Bağırov) / Ş.A.Məmmədova. – Bakı: Gənclik, – 2006. – 508 s.

[44] Yoloğlu, G. “Qırx qız” və türk xalqlarının folklorunun öyrənilməsi // Ədəbiyyat qəzeti, – 1997, 3 oktyabr, – s. 3; Yoloğlu, G. Türkün qüdrəti qadınının qeyrətindən qaynaqlanır // “Dövran” qəz., – 2000, 4-10 aprel, – s. 10; Yoloğlu, G. Başlıq adəti və ya nikah müqaviləsi. Türk qadını // – Bakı: “Körpü” jurnalı, – 2006, №1, – s.79-86.

[45] Yoloğlu, G. Mehriban Əliyeva sistemli idarəetmə təcrübəsinə malik bir qadındır// Yeni Sözçü qəzeti, – 2022, 19 fevral //https://sozcu.info/prizma/26097-mehrban-lyeva-ssteml-daretm-tcrubsn-malk-br-qadindir.html;

[46] Məmmədova, İ.G. Azərbaycanda gender bərabərliyinin etnoqrafik aspektləri // – Bakı: Azərbaycan arxeologiyası və etnoqrafiyası, – 2010, №1, – s.226-231.

N.M.Quliyeva[47] isə XIX-XX əsrlərdə azərbaycanlıların ailə-məişət məsələləri və qadınların vəziyyəti ilə bağlı etnoqrafik mənbələrə istinadən bir sıra maraqlı nəticələrə gəlmişdir.

G.İ.İbrahimovanın tədqiqatlarında[48] da orta əsrlərdən müasir dövrə qədər qadınların cəmiyyətdəki mövqeyi müxtəlif aspektlərdən təhlil edilmişdir. M.A.Süleymanlının araşdırmalarında[49] isə XIX-XX yüzilliklərdə qadınların Azərbaycan cəmiyyətindəki roluna və mövqeyinə dair yazılan əsərlərə elmi-tənqidi yanaşma daha çox diqqəti cəlb edir.

Bunlardan əlavə, həm L.A.Əliyevanın, həm də S.Z.Abbasovanın doktorluq dissertasiyalarında konkret xronoloji çərçivədə Azərbaycanda qadınların vəziyyəti, onların ölkənin ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafında rolu və s. araşdırılmışdır.

Dissertasiyada həmçinin Azərbaycan Xalq Cümhuriyyəti dövrünün qadın siyasətini əks etdirən mənbələrə, müasir rəsmi nəşrlərə və ensiklopedik toplulara[50], Birləşmiş Millətlər Təşkilatının mövzuya dair normativ-hüquqi sənədlərinə,

---

[47] Quliyeva, N.M. M.F.Axundovun əsərlərində ailə-məişət məsələlərinə dair // – Bakı: "Azərbaycan arxeologiyası və etnoqrafiyası" jurnalı, – 2013. №2, – s.113-115; Quliyeva, N.M. Etnoqrafiya və Etnologiya (dərs vəsaiti). Ali məktəb tələbələri üçün vəsait / N.M.Quliyeva. – Bakı: ADPU, – 2009. – 158 s.; Quliyeva, N.M. XIX-XX əsrlərdə Bakı şəhər əhalisinin ailə və ailə məişəti / N.M.Quliyeva. – Bakı: Elm, – 2011. – 240 s.

[48] İbrahimova, G.İ. XIX-XX əsrlərdə Azərbaycanda qadın siyasəti: / siyasi elmlər doktoru dissertasiyasının avtoreferatı) / – Bakı, 2011. – 56 s.; İbrahimova, G.İ. Heydər Əliyev və Azərbaycan qadını / G.İ.İbrahimova. – Bakı: Adiloğlu, – 2007. – 236 s.

[49] Süleymanlı, M.A. Əhməd Ağaoğlunun "İslama görə və islamiyyətdə qadın" əsərinə elmi-tənqidi yanaşmalar / M.A.Süleymanlı. – Bakı: Litterpress, – 2008. – 148 s.; Süleymanlı, M.A. Azərbaycanda gender probleminə dair ilk kulturoloji tədqiqat // AMEA-nın Məruzələri, – LXIV cild, – 2008, № 3, – s.193-200.

[50] Azərbaycan Xalq Cümhuriyyəti (ədəbiyyat, dil, mədəniyyət quruculuğu). – Bakı: Elm, – 1998. – 300 s.; Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: [2 cilddə]. – Bakı: Lider nəşriyyat, – I cild. – 2004. – 440 s.; Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: [2 cilddə]. – Bakı: Lider nəşriyyat, – II cild. – 2005. – 472 s.; Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament: [2 kitabda] (Stenoqrafik hesabatlar). – Bakı: "Azərbaycan" nəşriyyatı, – I kitab. – 1998. – 976 s.; Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament: [2 kitabda] (Stenoqrafik hesabatlar). – Bakı: "Azərbaycan" nəşriyyatı, – II kitab. – 1998. – 992 s.

Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikasının müvafiq qanunlarına, Azərbaycan Respublikası Prezidentinin dövlət qadın siyasəti sahəsində imzaladığı fərman və sərəncamlarından irəli gələn müddəalara geniş yer verilmişdir.

Beləliklə, mənbə və ədəbiyyatın xülasəsindən göründüyü kimi, Azərbaycanda qadının ailədə və ictimai həyatda iştirakı ilə bağlı bəzi məsələləri etnoqrafiya ilə yanaşı, digər elm sahələri üzrə ixtisaslaşmış tədqiqatçıların da araşdırma predmeti olmuşdur. Lakin gender münasibətlərinin müasir vəziyyəti, yeni çağırışlar və reallıqlar problemə kompleks elmi yanaşma tələb edir ki, bu da təqdim olunan dissertasiya mövzusunun seçilməsini, habelə tədqiqatın başlıca məqsəd və vəzifələrini müəyyənləşdirmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycan qadını – onun ailədə və cəmiyyətdə sosial statusu ilə bağlı məsələlər, o cümlədən gender münasibətləri təşkil edir. Bu məqsədlə dissertasiyada tarixi, etnoqrafik, kulturoloji, fəlsəfi və sosioloji aspektdə yazılmış kitab və monoqrafiyalar, dissertasiya və problematik məqalələr tədqiqata cəlb edilmiş, qarşıya qoyulmuş problemin kompleks həlli məqsədilə rəsmi statistik məlumatlardan, dövri mətbuat materiallarından və s. növ materiallardan istifadə edilmişdir. Tədqiqatın əsas predmetini isə Azərbaycan cəmiyyətində müasir gender münasibətlərinin vəziyyəti, ictimai, sosial və mədəni həyatda baş verən proseslərin ona təsir dərəcəsi, etno-mədəni təmayüllər və inkişaf meyllərinin yeni tarixi şəraitdə təhlili və s. təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi müasir gender münasibətləri sahəsindəki vəziyyəti etnoqrafik baxımdan araşdırmaq və tarixi təcrübənin mənimsənilməsi yolu ilə demokratik vətəndaş cəmiyyətində Azərbaycan qadınının yerini müəyyənləşdirməkdən ibarətdir. Bu məqsədə nail olmaq üçün dissertasiya işi qarşısında aşağıdakı əsas vəzifələr qoyulmuşdur:

- Azərbaycan qadınının sosial və ictimai mövqeyinin inkişaf dinamikasına nəzər yetirmək, onun ailə təsisatının və cəmiyyətin inkişafında rolunu araşdırmaq;

- Çar Rusiyası dövründə Azərbaycan qadınının sosial-ictimai vəziyyətini və maarifçi-ziaylıların bu yöndəki fəaliyyətini işıqlandırmaq;

- Azərbaycan Xalq Cümhuriyyəti dövründə qadınların hüquqi statusuna dair mənbələrin məlumatlarına münasibət bildirmək, Sovet Azərbaycanında qadınların ailədə və ictimai həyatdakı fəallığına təsir edən əsas faktorları müəyyənləşdirmək;

- Müstəqillik dövründə gender münasibətlərini Azərbaycan qadınının ictimai, mədəni və siyasi fəaliyyətini qarşılıqlı müqayisəli təhlilə cəlb edərək dəyərləndirmək, ölkəmizin birinci xanımı Mehriban Əliyevanın timsalında müasir Azərbaycan qadınının işgüzar statusunu və ictimai-siyasi sahədəki uğurlarını müasir dünyanın çağırışları və prioritetləri müstəvisində araşdırmaq.

**Tədqiqat metodları.** Dissertasiyanın tədqiqat metodlarını sistemlilik, tarixilik, müqayisəli və analiz-təhlil kimi etnoqrafiya elmində qəbul edilmiş metodlar təşkil edir. Araşdırmalar zamanı son illərin tarixi-etnoqrafik tədqiqatlarına daha çox üstünlük verilmiş, məsələlərə müasir elmin tələbləri, millilik və azərbaycançılıq ideologiyası prizmasından yanaşılmışdır. Bu zaman xronoloji ardıcıllığa xüsusi diqqət göstərilmiş, istinad edilən mənbə və ədəbiyyata obyektiv və tənqidi münasibət göstərilməsinə cəhd edilmiş, müasir elmi fikrin nəzəri nəticələrindən, problemə aid alternativ fikirlərdən, əvvəlki illərdə aparılan tədqiqatların təcrübəsindən yararlanmağa çalışılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Milli və dini dəyərlərə uyğun olaraq orta əsrlər dövründə qadınlar ailədə, sosial-ictimai həyatda və müəyyən hallarda hətta savaşda kişilərlə eyni statusa malik olmuşlar;

- Orta əsrlərdə ailə strukturu Azərbaycan cəmiyyətinin ən mühüm və davamlı birliyi olmuş, monoqam nikah forması dominantlıq təşkil etmişdir;

- Azərbaycanın çar Rusiyasının tərkibində olduğu dövrdə qadının sosial və ictimai vəziyyətində baş verən bəzi dəyişikliklər onların ictimai-mədəni həyatda daha fəal iştirakına müsbət təsirləri olmuşdur;

- XIX əsrin sonu XX əsrin əvvəllərində mədəniyyətin fərqli sahələrinin inkişafı, cəmiyyətdə qadının sosial və ictimai fəallığı milli mahiyət kəsb etməyə başlamış, sinfi mübarizənin şiddətlənməsi və milli-azadlıq hərəkatının yüksəlişi ilə onun fəaliyyət dairəsi genişlənmiş, milli burjuaziya ilə ziyalıların həmrəyliyi maarifçilik hərəkatının genişlənməsinə və qadın təhsilinin inkişafına təkan vermişdir;

-Azərbaycan Xalq Cümhuriyyətinin qəbul etdiyi "İstiqlal Bəyannaməsi"ndə qadınların seçib-seçilmə hüququnun təsbiti nəinki o illərdə, hətta Sovet hakimiyyəti dövründə də onların həm ailədə, həm də ictimai, siyasi və mədəni həyatda fəallığına zəmin hazırlamışdır;

-Azərbaycanda qadın hərəkatının sovet dövrü daha çox qadınların çadralarını atması, onların kütləvi şəkildə təhsilə və istehsalata cəlb olunması ilə xarakterizə olunmuşdur;

-Müstəqilliyin bərpasından sonra gender bərabərliyi müstəvisində Azərbaycan qadınlarının statusunun genişlənməsi üçün daha əlverişli imkanlar yaranmış, ailədə, ictimai, sosial və mədəni həyatın ən müxtəlif sahələrində onların aktiv iştirakı təmin olunmuşdur;

**Tədqiqatın elmi yeniliyi.** Problem müstəqil araşdırma mövzusu kimi ilk dəfə etnoqrafik tədqiqata cəlb edilmişdir. Çünki buna qədər Azərbaycan qadınının ailədə və ictimai həyatdakı mövqeyi daha çox tarixi etik, hüquqi, fəlsəfi,sosial və iqtisadi aspektlərdən araşdırılmışdır. Beləliklə, tədqiqatın elmi yeniliyi problemin özünün qoyuluşu ilə şərtlənmiş və daha çox aşağıdakı aspektləri əhatə etmişdir:

-Qadınların ictimai mövqeyi gender münasibətləri prizmasından və tarixi inkişaf kontekstində ilk dəfə olaraq tarixi-etnokrafik müstəvidə araşdırılmış, bu zaman XIX və XX əsr islahatçı ziyalıların problemlə bağlı nəzəri və praktik fəaliyyətinin dəyərləndirilməsinə geniş yer verilmişdir;

-İlk dəfə olaraq XX əsrdə və Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycan qadınının ictimai-mədəni fəallığının hüquqi-siyasi aspektləri əvvəlki tarixi dövrlərin tələb və şərtləri də nəzərə alınmaqla, tarixi faktlar, rəsmi sənədlər, dövri mətbuat və tədqiqat materialları əsasında müqayisəli şəkildə təhlil edilmişdir. Azərbaycan

SSR-də qadınların statusu və ictimai fəallığı araşdırılarkən isə daha çox ideoloji və siyasi amillərə, totalitar rejimin mahiyyətindən irəli gələn stereotiplərin təhlilinə və tənqidinə xüsusi diqqət yetirilmişdir;

-Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etməsindən sonra qadının ailədə və mədəni-siyasi quruculuq sahəsində rolu və fəaliyyəti tarixi inkişaf dinamikası fonunda araşdırılmış və müstəqilliyin bu sahədə yaratdığı geniş maddi, sosial, hüquqi və münbit mədəni-mənəvi şərait təhlil edilmişir. Bu zaman Azərbaycan qadınının həyatında baş verən müsbət dəyişikliklər, onun işgüzar statusunun parametrləri və ictimai fəallıq dinamikası milli-mənəvi dəyərlər və tarixi ənənələrin qorunması da nəzərə alınaraq müəyyənləşdirilmişdir.

Tədqiqat işində həmçinin Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın çoxcəhətli ictimai-siyasi fəaliyyətinin gender münasibətlərinin inkişafında başlıca stimula çevrilməsi xüsusi qeyd olunmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat prosesində əldə olunan əsas elmi nəticələr müasir Azərbaycan qadınının ailədə və ictimai həyatda iştirakının mahiyyətinin açıqlanması baxımından, həm elmi, həm də nəzəri əhəmiyyət kəsb edir. Təqdim edilən dissertasiya işi ilk etnoqrafik araşdırma olduğundan, gələcəkdə ayrı-ayrı sahələri üzrə yeni elmi tədqiqatların aparılmasına təkan verə bilər. Dissertasiya işinin müddəalarından etnoqraflarla yanaşı, kulturologiya, sosiologiya, mədəniyyət tarixi ilə məşğul olan araşdırmaçılar da istifadə edə bilərlər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya mövzusunun əsas müddəaları müəllifin Azərbaycan, Türkiyə və Ukraynanın müxtəlif elmi nəşrlərində çap olunmuş məqalələrində, o cümlədən yerli və beynəlxalq konfranslarda etdiyi çıxış və məruzələrində əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Tədqiqat işi AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun "Müasir dövr etnoqrafiyası" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın ümumi həcmi.** Giriş, 3 fəsil və nəticə daxil olmaqla dissertasiyanın ümumi həcmi 248 910 (ədəbiyyat siyahısı istisna olmaqla) işarədən, o cümlədən, "Giriş" hissəsi 22 501, I Fəsil

82 460, II Fəsil 60 483, III Fəsil 72 213, "Nəticə" hissəsi isə 11 253 işarədən ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**"Giriş"də** mövzunun aktuallığı əsaslandırılmış, problemin işlənmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar, elmi yenilik, dissertasiyanın nəzəri və praktik əhəmiyyəti, aprobasiyası, tətbiqi, strukturu və həcmi əksini tapmışdır.

Dissertayanın birinci fəsli **"Gender münasibətlərinin inkişaf dinamikası"** adlanır. Fəslin **"Gender problemləri: məzmunu, araşdırılma vəziyyəti və əsas istiqamətləri"** adlanan ilk yarımfəsli "gender" kateqoriyasının məzmununa və tutumuna, əhatə dairəsinin və sərhədlərinin müəyyənləndirilməsinə, "gender" probleminin Avropa elmində tədqiqinin əsas aspektlərinin şərhinə həsr olunmuşdur. Burada qeyd olunur ki, "gender" yalnız qadın haqq və hüquqların ehtiva edən anlayış olmayıb, hər iki cinsin vətəndaş cəmiyyətinin formalaşmasında bərabər iştirakını və maraqlarının təmin olunmasını nəzərdə tutan daha geniş bir ifadədir. İnsana onun bioloji cinsi, sosial statusu və etnik mənsubiyyəti baxımından fərq və ya ayrı-seçkiliyin qoyulmaması əsas şərtdir. Yəni, "gender" hər hansı bir cinsin deyil, qeyd-şərtsiz hər kəsin vətəndaş cəmiyyətinin formalaşmasında iştirakının təminatını özündə ehtiva edən çox geniş bir anlayış kimi ortaya çıxır.

Fəslin **"Qadının ailədə və cəmiyyətdəki mövqeyi tarixi inkişaf kontekstində"** adlı ikinci yarımfəslində əsas diqqət azərbaycanlılarda ailənin sosial mahiyyətinə, ailə münasibətlərində qadın və kişilərin sosio-mədəni roluna və funksiyalarına yetirilmişdir.

Bu yarımfəsildə həmçinin, Azərbaycan qadınlarının idarəçilik qabiliyyətinin əks olunduğu məsələlərə və onun ailəyə sədaqətini təsdiqləyən nümunələrə geniş yer verilmişdir. Bu baxımdan sərkərdə Tomrisin vətənimizə hücum edən işğalçı şah Kiri məğlub etməsi", Harun Əl-Rəşidin (786-809) həyat yoldaşı - IX əsrin Azərbaycan şairi, xeyriyyəçisi və ictimai-siyasi xadimi Zübeydə Xatun Təbrizinin

ictimai fəaliyyəti, şairə Zeynəb Xinəvinin (Xınalqi) (XI əsr) bədii yaradıcılığı və s. orta əsr Azərbaycan qadınlarının fəal həyat mövqeyinin bariz örnəklərindən sayıla bilər[51]. Lakin bu cəhət ilk növbədə həmin tarixi dövrün xarakterindən və tələblərindən asılı olmuş, fərqli situasiyalarda fərqli formalarda təzahür etmişdir.

Fəslin **"Çar Rusiyası dövründə qadınların sosial, ictimai və mədəni-mənəvi durumu"** adlı üçüncü yarımfəsilində Çar Rusiyası dövründə Azərbaycan qadınının sosial və ictimai həyatında baş verən dəyişikliklər, onların ictimai-mədəni proseslərdə iştirakının və maariflənməsinin vacibliyini diktə edən şərtlərlə bağlı məsələlər araşdırılmışdır. Məlumdur ki, həmin məsələlər XIX əsrdən etibarən Azərbaycan cəmiyyətini narahat edən əsas problemlərdən birinə çevrilmiş və dövrün qabaqcıl ziyalılarının daim diqqət mərkəzində olmuşdur. *"Azərbaycanın ilk maarifpərvər qadınları bu dövrdə böyük çətinliklərlə üz-üzə gəlsələr də, hər cür hədə-qorxudan, hətta ölümdən belə çəkinməyərək ictimai-mədəni məsələlərin həllində, xalqımızın maarifləndirilməsində fədakarlıqlar göstərirdilər"*[52].

Xüsusilə, qadın təhsili, dünyəvi qız məktəblərinin, qadın xeyriyyə cəmiyyətlərinin və mətbu orqanlarının yaradılması qadınların mədəni-maarif yolundakı mübarizəsində əhəmiyyətli rol oynamışdır. Lakin çar Rusiyası zamanında işıq üzü görən müsəlman qadınların ilk mətbu orqanı - "İşıq" qəzeti (1911-1912) bir yandan islamçı mövqedən çıxış etməklə, digər yandan çadranın qadın şəxsiyyətinin tərəqqisinə mane olduğunu yazmaqla konkret mövqe ortaya qoya bilmirdi. Yalnız XIX əsrin ikinci yarısından etibarən mədəniyyət və cəmiyyət həyatı ilə bağlı mütərəqqi ideyalar meydana gəlməyə başladı. Məsələn, İ.Qaspıralı özünün "Qadınlar ölkəsi" adlı əsərində *"qadının cəmiyyət həyatına fəal olaraq qatılması ilə millətin də inkişaf imkanı qazanacağı"*[53] fikrini irəli sürmüşdü. Buna münasibət bildirən Yusuf Akçuraya görə isə, İ.Qaspıralının *"gözündə millətin anaları, millətin birinci tərbiyəçiləri qadınlardır; qadınlar*

---

[51] Zəkiyev, İ. Qonaqkənddən başlayan yol / İ.Zəkiyev. – Bakı: – 2001. – 268 s.
[52] Məmmədov-Gəncəli, S. Ömürlərdən səhifələr / S.Məmmədov-Gəncəli. – Bakı: İşıq, – 1973, s.6.
[53] Akçuraoğlu, Y. Türkçülük / Y.Akçura. – İstanbul: – 1990, – s.72-73.

*həyatı anlamayacaq olurlarsa, uşaqlarını həyata qabiliyyətli olaraq yetişdirə bilməzlər*”[54]

Ədəbiyyat materiallarının təhlili göstərir ki, ilk dövrlərdə maarifçi ziyalılar qadın problemini demokratik ideyalar çərçivəsində təbliğ etməyə və ictimaiyyətləşdirməyə çalışmışlar. Onlar *“qadını alqı-satqı vasitəsinə çevirən, çadraya bürünməyə vadar edən şəriət normalarını tənqid edir, çoxarvadlılığa və azyaşlı qızların ərə verilməsinə qarşı mübarizə aparırdılar”*[55]. Bu mübarizənin məntiqi yekunu kimi, XIX əsrin sonlarında Azərbaycanın böyük oğlu, xeyriyyəçi-milyonçu H.Z.Tağıyev öz şəxsi əlaqələri və vəsaiti hesabına Bakıda ilk qız məktəbinin açılmasına razılıq ala bilmiş və 1898-ci ilin iyununda memar İ.Qoslavskinin layihəsi əsasında bu məktəb binasının tikintisinə başlanılmışdır.[56] Məktəb 1901-ci ilin sentyabr ayında ilk müsəlman qız şagirdlərini qəbul etmişdir. Sonrakı illərdə onlar Azərbaycanın ictimai, siyasi və mədəni həyatında mühüm mövqe və rola sahib şəxsiyyətlər kimi tanındılar.

Bu yarımfəsildə həmçinin Çar Rusiyası dövründə Şərq qadını ilə Avropa qadını arasındakı ictimai və sosial fərqlər də araşdırılmış, bu fərqlərin meydana gəlməsini şərtləndirən siyasi mühit və tarixi şəraitin xüsusiyyətlərinə diqqət yetirilmişdir.

Beləliklə, görürük ki, qadınların da iştirakını nəzərdə tutan əlverişli mədəni və ictimai-sosial mühitin formalaşmaşına, məktəb, maarif, mətbuat, teatr, musiqi və s. kimi bütün həyat sahələrinin inkişafına yönəlik fəaliyyətlər XX əsrin əvvəllərində öz bəhrəsini verməyə başlayır. Xüsusilə, yeni-yeni təşəkkül tapan milli burjuaziya ilə ziyalıların həmrəyliyi çox önəmli faktora çevrilir ki, bu da ilk növbədə maarif və yeni tipli mədəniyyətin tərəqqisində çox mühüm faktora çevrilir.

Dissertasiyanın **II fəsli “XX əsrdə Azərbaycan qadını ailədə və ictimai həyatda**” adlanır. Bu fəslin **“Azərbaycan Xalq**

[54] Akçura, Y. Türkçülüğün tarihi / Y.Akçura. – İstanbul: Kaynak yayınları, – 2001, s.72.
[55] İbrahimova, G.İ. XIX-XX əsrlərdə Azərbaycanda qadın siyasəti: / siyasi elmlər doktoru dissertasiyasının avtoreferatı) / – Bakı, 2011, – s.31-33.
[56] Cabbarov, F.R. Hacı Zeynalabdin Tağıyev qız məktəbinin tarixindən – Bakı: Ziya, – 2011, – s.12.

**Cümhuriyyəti (AXC) dövründə qadınlar"** başlıqlı birinci yarımfəslində 1918-1920-ci illərdə Azərbaycan qadınının ictimai həyatında və sosial statusunda baş verən dəişikliklərdən bəhs olunur.

Qadınların sosial və ictimai həyatda haqlarının qorunması uğrunda təşəbbüslərə əvvəlki illərdə də rast gəlinməsinə baxmayaraq, ilk dəfə olaraq məhz Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) qəbul etdiyi İstiqlal Bəyannaməsi ilə cinsi mənsubiyyətindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşlarına siyasi və mülki hüquqlar verildi. Bunun da əsasında 1919-cu ildə AXC parlamenti Müəssislər Məclisinə seçkilərlə bağlı tarixi qanun layihəsini qəbul etdi və *"ilk dəfə olaraq qadınların da seçkilərdə iştirakı qanunla təsbit olundu"*[57]. "Əsasnamə"yə əsasən,*" seçki gününə qədər 20 yaşı tamam olmuş, hər iki cinsdən olan bütün respublika vətəndaşları seçkilərdə iştirak edə bilərdilər".*[58]

Beləliklə, Cümhuriyyət zamanında ictimai həyatın bütün sahələrində qadın və kişilərin hüquq bərabərliyinin təmin edilməsi, cinsi mənsubiyyətlə şərtlənən ayrı-seçkiliyin aradan qaldırılması kimi önəmli qərarlar, qadınlara kişilərlə bərabər imkanların yaradılması faktını və hüquq bərabərliyinin formal xarakter daşımadığını sübut edir.

Bu illərdə qadın məsələləri ilə bağlı qəbul edilmiş qanunlarda bəzi boşluqların olması diqqəti cəlb etsə də, hökumət ilk gündən onların nizama salınmasına, digər hüquqi-normativ sənədlərlə kompensasiya edilməsinə cəhd göstərirdi. Bunların müzakirələri zamanı siyasi müstəvidə qızğın mübahisələrin, xüsusilə qadınların rəhbər vəzifələrə təyin olunmasına bəzi etirazların ortaya çıxmasına baxmayaraq, qadınlara da kişilər kimi tam etimad göstərilir və əksər hallarda şəxsi mənafe ümumi maraqlara tabe edilirdi.

Məsələn, "Hümmət" fraksiyası qəbul etdiyi bəyannamə ilə ailə münasibətlərinin hüquqi şəkildə tənzimlənməsində monoqam ailə strukturunun zəruriliyini qəti şəkildə qoyaraq qeyd edirdi: *"Gərək belə bir qanun verilsin ki, hər kişinin bir nəfərdən artıq arvadı olmağa*

[57] Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты (сборник документов). – Баку: Азербайджан, – 1998, – с. 56.
[58] Азербайджанская Демократическая Республика. Законодательные акты: 1918-1920 гг. – Баку: Элм, – 1998, – с.71.

*ixtiyarı olmasın”*[59].

Bundan əlavə, Parlamentdə aparılan müzakirələrin yekunu olaraq qadınların məşğulluq imkanlarının artırılması məqsədilə kustar sənaye kursları yaradılmış, tikiş və toxuculuq emalatxanalarının açılması ilə bağlı bir sıra layihələr müzakirə edilmişdir.

AXC ilk gündən təhsil sahəsində də kişilərlə qadınların hüquq bərabərliyinə diqqət yetirmiş və bu sahədə bir sıra qanun layihələri qəbul etmişdir. Məsələn, *“1919-cu il iyun ayının 2-də qadın orta təhsil məktəblərində qanunlara dəyişikliklər və əlavələr edilərək”*[60] orta təhsil müəssisəsində çalışan hər iki cinsin nümayəndələrinə eyni hüquqlar verilməsi qərara alınmışdı.

Ümumiyyətlə, İstiqlaliyyət Bəyannaməsinin bütün maddələri, xüsusilə 4-cü bəndi türk və müsəlman dünyasında inqilabi əhəmiyyət daşımış, Şərqdə ilk seçki hüququ qazanmış Azərbaycan qadınının sosial, iqtisadi, mədəni və ictimai fəallığının artmasına güclü təkan vermişdir. Lakin 1920-ci ilin aprelində sovet Rusiyasının hərbi müdaxiləsi və AXC-nin süqutu səbəbindən qadın hərəkatının ilk – təşəkkül mərhələsi də sona çatmış oldu.

II fəslin **ikinci yarımfəsli “Sovet hakimiyyəti illərində qadınlar”** adlanır. Bu yarımfəsildə, adından da göründüyü kimi, Azərbaycan SSR-də qadınların ailədə və ictimai həyatda iştirakı ilə bağlı məsələlər etnoqrafik tədqiqata cəlb edilmişdir. Həmin məsələlərin içərisində müsəlman Azərbaycan qadınının bir növ qapalı həyat tərzi ilə vidalaşması xüsusi aktuallıq kəsb edir. Belə ki, Azərbaycan qadını sovet ideologiyasının diqtə etdiyi şərtlər daxilində sərbəst yaşamaq və işləmək imkanı əldə edərək, həyatın bütün sferalarında kişilərlə bərabər hüquqlara sahib oldular. Sovet hakimiyyətinin ilk illərindən başlayaraq, mədəni-maarif sahəsində aparılan işin ən effektiv formalarından biri də qadın klublarının yaradılması oldu. *“Qadın klubları türk qadınlarının həyatında mədəni-maarif, siyasi-kütləvi iş sahəsində də böyük xidmətlər*

---

[59] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament: [2 kitabda] (Stenoqrafik hesabatlar). – Bakı: Azərbaycan, – I kitab. – 1998, – s. 65.

[60] Азербайджанская Демократическая Республика (1918-1920). Законо-дательные акты (сборник документов). – Баку: Азербайджан, – 1998,– s.251-252.

*göstərmişdir"*[61]

Lakin ideoloji və vahid partiyalı siyasət xətti yeridən sovet rejimi şəraitində *"bərabərlik ideyası bayağı bərabərçilik prinsipinə çevrilir, unikal insan fərdiyyətinin yerini milyonlardan biri olan özgələşmiş sosial insanlar tuturdu"*.[62] Lakin bu zaman ailə və qadın məsələlərində əvvəlki illərdə əldə edilmiş mütərəqqi nailiyyətlərə fərqli məna və məzmun verilir. Azərbaycan cəmiyyəti üçün ənənəvi olan mənəvi-etik dəyərlər kənara atılır, kişi və qadın fərqi qoymadan ölkə ziyalılarının öndə gedən nümayəndələri müxtəlif bəhanə və ittihamlarla işdən çıxarılır, həbs edilir və sürgünə göndərilirdi. Xüsusilə, əsrin 30-40-cı illərində bu işlər az qala bir "sosializm yarışı" səviyyəsinə qaldırılmışdı. Qəbul edilən qanunlar kağız üzərində qalır, hakimiyyətdən təcrid edilən xalqın mənafeyi reallıqda demək olar ki, təmin edilmirdi. Belə ki, sovetlərin ilk onilliyi ərzində *"Əmək Məcəlləsi həyatın, təsərrüfat fəaliyyətinin əksər sahələrini əhatə etsə də, o dövrdə qadınların hüquqlarının tam təmin olunması və qorunması mexanizmlərinin dolğun hüquqi əsasını yarada bilmədi"*.[63]

Doğrudur, bir sıra sahələrdə, məsələn, qadın təhsili sahəsində kəmiyyət göstəriciləri istər əsrin əvvəlləri, istərsə də Cümhuriyyət dövrü ilə müqayisədə xeyli yüksəlmişdi. Qız məktəblərində, səhiyyə ocaqlarında və digər yerlərdə kadr ehtiyacının ödənilməsi üçün geniş tədbirlər planı həyata keçirilirdi. Lakin bütövlükdə qadın azadlığı problemi sovet rejimi şəraitində daha çox "şüarçılıq" xarakteri daşımış, mətbuatda və digər KİV vasitələrində qadın, bir növ çalışan, işləyən, qurub-yaradan, həm ailədə, həm də ictimai həyatda fədakarlıq nümunəsi göstərən bir obraz səviyyəsinə qaldırılmışdı.

Beləliklə, 1922-1991-ci illəri əhatə edən qadın hərəkatının sovet dövrü, *"əsasən qadınların çadralarını atması, elliklə təhsilə, kütləvi şəkildə istehsalata cəlb olunması ilə xarakterizə olunurdu"*[64].

---

[61] İbrahimova, G.İ. XIX-XX əsrlərdə Azərbaycanda qadın siyasəti: / siyasi elmlər doktoru dissertasiyasının avtoreferatı) / – Bakı, 2011, – s.41.

[62] Xəlilov, S.S. Fəlsəfədən siyasətə / S.S.Xəlilov. – Bakı: Azərbaycan Universiteti, – 1998, – s.23.

[63] İbrahimova, G.İ. XIX-XX əsrlərdə Azərbaycanda qadın siyasəti: / siyasi elmlər doktoru dissertasiyasının avtoreferatı) / – Bakı, 2011, – s. 40.

[64] Məmmədova, Ş.A. Anaların fəryadı (Məsləhətçi və redaktor: polkovnik Xaqani Bağırov) / Ş.A.Məmmədova. – Bakı: Gənclik, – 2006, – s.11.

Yarımfəsildə həmçinin dövlət qadın siyasətinə mühüm əhəmiyyət verən ulu öndər Heydər Əliyevin Azərbaycan qadınının ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatdakı fəallığını, dövlət və hakimiyyət strukturlarında aktiv yer almasını və onların mədəni-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində gördüyü işlər də əksini tapmışdır. Təsadüfi deyil ki, onun Azərbaycanda hakimiyyətdə olduğu illərdə təhsil, elm və mədəniyyət sahələrində qadınların rolu əhəmiyyətli dərəcədə artmışdı. Təkcə onu demək kifayətdir ki, *"1980-ci illərin əvvəllərində elmi işçilərin hər üç nəfərindən biri qadın idi"*.[65]

Bütövlükdə *"göstərilən dövrdə cəmiyyətdə kişi və qadınlar arasında nisbi tənasüb yaransa da bu, hələ əməli bərabərlik demək deyildi"*.[66] Yalnız SSRİ-nin süqutu və Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etməsindən sonra bu istiqamətdə beynəlxalq təcrübə təməlində geniş və fundamental fəaliyyət proqramlarının reallaşdırılmasına başlanıldı.

**"Müstəqillik dövründə gender münasibətləri: qadınlar ailədə, ictimai-siyasi və mədəni həyatda"** adlı III fəslin birinci yarımfəsli "**Qadınların ailədə mövqeyi gender münasibətləri və novasiyalar kontekstində"** adlanır. Artıq qeyd edildiyi kimi, 1991-ci ildə dövlət müstəqilliyinin bərpası ilə gender bərabərliyi kontekstində Azərbaycan qadınlarının öz statuslarını dəyişməsi üçün potensial imkanlar yarandı. Azərbaycan dövləti ictimai və şəxsi həyatda ayrı-seçkiliyin və gender bərabərsizliyinin mövcudluğunu rəsmən tanıdı və tez bir zamanda bunların aradan qaldırılması üçün ölkədə konkret işlər görməyə, ilk növbədə isə gender bərabərliyinin hüquqi-normativ bazasının yaradılmasına başlanıldı. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının (1995) 25-ci maddəsi[67] ilə qadın və kişilərin bərabər hüquq və azadlıqları təsbit olundu, insan və vətəndaş hüquq və azadlıqlarının

---

[65]Abbasova, S.Z. Azərbaycan Respublikasının ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafında qadınların rolu (1970-2015-ci illər): / tarix elmləri doktoru dissertasiyasının avtoreferatı. / – Naxçıvan, 2017, – s.20.

[66] Məmmədova, İ.G. Azərbaycanda gender bərabərliyinin etnoqrafik aspektləri // – Bakı: Azərbaycan arxeologiyası və etnoqrafiyası, – 2010, №1, – s.228.

[67] Azərbaycan Respublikasının Konstitusiyası (1995-ci il 27 noyabr). – Bakı: "Kitab" cəmiyyəti və "Azinterpijl" firması, – 1998, – s.14-15.

cinsi mənsubiyyətə görə məhdudlaşdırılması qadağan edildi. Həmçinin 2006-cı ildə qəbul olunmuş "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" qanunla cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formaları aradan qaldırıldı, kişi və qadınlara ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanlar yaradılmaqla gender bərabərliyi təmin edildi[68].

Müvafiq beynəlxalq konvensiyaların və hüquqi sənədlərin ratifikasiyasından sonra Azərbaycanda qadın hərəkatının daha da genişlənməsi müşahidə olundu. Xüsusilə, 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra qadın problemlərinin həlli və gender problemi dövlət siyasətinin tərkib hissələrindən birinə çevrildi. Bunun da nəticəsi olaraq, hazırda Azərbaycanda həyata keçirilən dinamik inkişaf bütün sahələrdə olduğu kimi, ailə, qadın və uşaq siyasətində də ciddi uğurların əldə edilməsinə səbəb olmuşdur. Belə ki, Azərbaycanın inkişaf etmiş dünya ölkələrinin səviyyəsinə gəlib çatmasına imkan verən *"demokratik dəyişikliklər zamanı qadınlar kişilərlə bərabər fəallıq göstərir və özlərinin vətəndaş hüquqlarını təsdiqləməyə çalışırlar"*.[69]

Ümumiyyətlə, müstəqillik illərində qadının ailədəki mövqeyi xeyli möhkəmlənmiş və qadın-kişi bərabərliyi prinsipi ailənin bütövlüyünü, sağlamlığını qoruyub saxlamağın təməl prinsiplərindən birinə çevrilmişdir. Sadə (nuklear) ailələrdə bu prinsipin qismən pozulması hallarına rast gəlinsə də, gender bərabərliyinin Azərbaycan cəmiyyətində tədricən öz yerini tutması, "kişi avtoritarizmi"nin və qadın hüquqsuzluğunun aradan qalxması qabarıq şəkildə görünməkdədir.

III fəslin **"Müasir Azərbaycan qadını ictimai-siyasi və sosial fenomen kimi"** adlı ikinci yarımfəslində son illərdə

---

[68] Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" qanun, 150 IIIQ, maddə 1; maddə 3.2.6 // http://www.meclis.gov.az/?/az/legislation/view/867

[69] Şabanov, Z.M. Gender mədəni müxtəliflik prizmasında // Mədəni müx¬təliflik sosial-siyasi dəyər kimi. Kulturoloqların II Milli Forumu. Beynəlxalq elmi-praktiki konfrans. – Bakı, – 3 iyun 2010-cu il. – Bakı: Elm, – 2010, – s.122.

hakimiyyətin qanunvericilik qanadında və iqtisadiyyatda qadınların iştirakının genişləndirilməsi istiqamətində dövlət tərəfindən reallaşdırılan tədbirlərdən, qadın və kişilərin reproduktiv sağlamlığının yaxşılaşdırılması, uşaq və ana ölümlərinin qarşısının alınması üçün görülən tədbirlər, əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsindən və digər məsələlərdən bəhs olunur. Bu baxımdan Ulu Öndər Heydər Əliyevin gördüyü işlər, onun qadınların işgüzarlığına həmişə yüksək dəyər verməsi, qadınları ən məsuliyyətli işlərə və vəzifələrə təyin etməsi xüsusilə qeyd edilir və rəsmi statistik rəqəmlərlə təqdim olunur. Burada həmçinin bəhs edilən məsələlərlə bağlı bəzi müqayisəli təhlillər aparılır, müasir dünya landşaftında Azərbaycan respublikasının mövqeyinin müəyyənləşdirilməsinə cəhd edilir.

Əminliklə deyə bilərik ki, hazırda Azərbaycanda gender bərabərliyinin tənzimlənməsi üçün möhkəm hüquqi baza yaradılmışdır. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, "*Azərbaycan qadını ölkəmizdə sülhün və əmin-amanlığın qorunub saxlanması naminə əzmkarlıq göstərir, vətəndaş həmrəyliyi və dövlətçiliyimizin daha da gücləndirilməsi, milli-mənəvi dəyərlərin daim yaşadılması və mədəniyyətimizin inkişaf etdirilməsi üçün var qüvvəsini səfərbər edir*"[70]. Heç şübhəsiz ki, bu işdə - bütövlükdə XXI əsr Azərbaycanında qadın hərəkatının formalaşmasında, qadın hüquq və azadlıqlarının bərqərar edilməsində ölkəmizin birinci xanımı, birinci vitse-prezident Mehriban Əliyevanın da müstəsna xidmətləri vardır.

Beləliklə, deyilənlərdən belə bir qənaətə gəlmək olur ki, qadın hüquqları, qadının aktiv ictimai-siyasi fəaliyyətlə məşğul olma səviyyəsi və bütövlükdə sosial statusu (peşəsi, yaşı, ailə vəzifəsi) ilk növbədə onun cəmiyyətdə tutduğu mövqeyi ilə şərtlənir və formalaşır. Bu mənada deyə bilərik ki, qadının siyasi sosiallaşma dərəcəsi də ilk növbədə onun *"fəal siyasətə qoşulmasına şərait*

[70] Prezident İlham Əliyev və mədəniyyət: [2 cilddə]. – Təbriklər, Qanunlar, Fərmanlar, Sərəncamlar. – Bakı: İdeal-print, – II cild. 2008, – s. 22.

*yaradan sosial-psixoloji mexanizmlərin vəhdəti ilə, eləcə də siyasi fəallığının yüksəlməsi kimi amillərlə tənzimlənir*"[71].

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatın məzmunundan irəli gələn müddəa və mülahizələr ümumiləşdirilmiş, qarşıya qoyulmuş problemin həlli vəziyyəti barədə fikirlərə yekun vurulmuşdur.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı əsərlərində öz əksini tapmışdır**

1. XIX əsrin sonu XX əsrin əvvələrində Azərbaycan maarifçilərinin yaradıcılığında təhsildə gender // "Təhsildə gender aspektləri" Respublika Elmi Konfransının materialları, – Bakı: Qərb Universiteti, – 2013. – s. 143-149.
2. Azərbaycan Xalq Cümhuriyyəti dövründə qadın siyasəti // - Bakı: Geo Strategiya, - 2014. № 06/24, - s. 60-64.
3. Azərbaycan elmi və ictimai fikrində gender münasibətlərinə kulturaloji baxış (XX əsrin əvvəllərinə aid mənbələr əsasında) // - Bakı: AMEA-nın arxeologiyası və etnoqrafiyası jurnalı, - 2014. № 2, - s. 229-234.
4. Azərbaycan qadının ailədə və ictimai həyatdakı mövqeyinə dair // "Qloballaşan dünyada dəyişən gender rolları" Beynəlxalq Elmi Konfransı, - Bakı: Qərb Universiteti, - 2015. - s. 242-248.
5. Azərbaycanda maarifçilik və qadınların ictimai fəallıqı // - Bakı: AMEA-nın Arxeologiyası və Etnoqrafiyası jurnalı, - 2016. - s. 230-237.
6. Şark kadının ilk seçim hukuku və Azərbaycan Halk Cümhuriyyəti dönəmində kadın hakları // - Manisa: "Türk dünyasında kadın alqısı" Cəlal Bayar Universitesi Yayınları, - c. 2. № 0017, - 2016. - s. 681-689.
7. Sovet Azərbaycanında qadınların sosial–ictimai həyatı // - Bakı: AMEA-nın Arxeologiyası və Etnoqrafiyası jurnalı, - 2016. № 2, - s. 200-206.
8. Azərbaycanda gender demokratiyasının hüquqi-praktiki təzahürləri // Gender problemləri və müasir Azərbaycan Respublika elmi konfrans

[71] Mirzəzadə, R.R. Gender: Cəmiyyət, insan hüququ, siyasət / R.R.Mirzəzadə. – Bakı: Adiloğlu, – 2003, – s. 321.

materialları, - Bakı: Azərbaycan Universiteti, - 25 noyabr 2017. – s. 356-360.
9. Socio–political activity of MehribanAliyeva as the proof of Azerbaijani woman's working status // - Київ: Гілея Науко вийвісник збірник на укових праць, - 2017. Вып. 125 (№ 10), - с. 429-432.
10. Xalçaçılığın inkişafında Azərbaycan qadınlarının rolu // Beynəlxalq sosial və ümümi elmlərdə modern araşdrmalar konfransı, - Qarabağ: - 8-10 noyabr 2021. – s. 503-514.
11. Этнографический взгляд на гендерные отношения у тюркских народов в эпоху средневековья // - Київ: Вчені Записки Таврійського Національного Університету Імені В.І. Вернадського Серія: Історичні Науки. Видавничий дім «Гельветика», - 2021. Том 32(71) № 4, - с. 243-249.
12. Müasir Azərbaycan qadının sosıal və işgüzar statusuna dövlət qayğısı // Karabakh III. Internatıonal congress of modern studıes ın socıal scıences and humanıtıes. Beynəlxalq konfrans materialı, - Qarabağ: - 7-10 iyun 2022. – s. 181-184.
13. Kitabi-Dədə-Qorqud eposunda qadın: cəmiyyətdə və ailədə // Unity of Turkic peoples-Turan. Internatıonal Scientific Symposium. Beynəlxalq konfrans materialı, - Bişkek: - 24 dekabr 2023. – s. 93-98.

Dissertasiyanın müdafiəsi 09 fevral 2024 –ci il tarixində saat 10⁰⁰-da Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan:Az.1143, Bakı şəhəri, H.Cavid prospekti, 115.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 08 yanvar 2024-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:___ __ 2024

Kağızın formatı: A5

Həcm: 45036

Tiraj: 100